**Arzu Etibar qızı AXUNDZADƏ**
*Qərbi Kaspi Universiteti, Politologiya,*
*Psixologiya və Sosial iş kafedrasının magistrantı*
E-mail: arzuakhundzadeh@gmail.com

# YENİYETMƏ ŞƏXSİYYƏTİNİN SOSİAL – PSİXOLOJİ PROBLEMLƏRİ

**Xülasə**

Yeniyetməlik dövrü hər bir insanın həyatında ən kritik və mühüm mərhələlərdən biridir. Bu dövrdə yeniyetmələr sosial, psixoloji və bioloji dəyişikliklərlə üzləşir və bu onların davranış və düşüncələrinin formalaşmasına ciddi təsir göstərir. Bu məqalədə, yeniyetməlik dövründəki insanların üzləşə biləcəkləri sosial-psixoloji problemlərə diqqət yetiriləcək. Bu problemlər arasında sosial təsir kimi ailədaxili münasibətlərin yeniyetməyə olan təsirindən, valideynlərin bu dövrdə hansı tərbiyə üsullarından istifadə etməsindən bəhs ediləcək. Həmçinin psixoloji təsir kimi isə “mən” konsepsiyası, özünüqiymətləndirmə məsələləri və yaşlılıq hissinin yeniyetmə şəxsiyyətinə olan təsiri problemləri təqdim edilir.

***Açar sözlər:*** Yeniyetməlik, fizoloji dəyişikliklər, yaşlılıq hissi, şəxsiyyət, sosial-psixoloji xüsusiyyətlər.

**DOI:** https://doi.org/ 10.54414/HMKB9643

## Giriş

Yeniyetməlik yaş dövrü 10-11 yaşından 14-15 yaşına qədər olan dövrü əhatə edir. Bəzi ədəbiyyatlarda isə yeniyetməliyi 3 dövrə bölürlər. Erkən yeniyetməlik dövrü bu təxmini 11-14 yaşı əhatə edir. Orta və böyük yeniyetməlik dövrü isə 15-18 yaş dövrlərini əhatə edir. Bu dövr bir çox mənbələrdə “keçid”, “dönüş”, “böhran”, “təhlükəli” və. s adlandırılır. Yeniyetməlik dövrünə keçid dövrü deyilməsinin səbəbi: uşaqlığın bitdiyi və artıq yetkinliyə keçidin başladığı dövr olmasıdır. Yəni bu dövr nə uşaqlıq dövrüdür, nə də yetkinlik dövrüdür: ikisinin arasında yerləşən keçid mərhələsidir. Yeniyetməlik dövrü uşaqlıqdan yetkinlik dövrünə qədər olan zehni inkişaf və həyata hazırlıq dövrü kimi müəyyən edilə bilər. Aqata Kristi yeniyetməlik dövrünü şans kimi qiymətləndirirdi: “Yeniyetməlik, bir insanın həyatında bir dəfəlik şansdır, lakin düzgün istifadə etməyin yolu, onu sonuna qədər yaşamaq və öyrənməkdir”. Yeniyetməlik dövründə fizoloji, psixoloji və sosial dəyişiklikər baş verir.

## Əsas hissə

Bu yaş dövründə yeniyetmənin anatomik fizioloji və psixi inkişafında, iradi- emosional sferasında və əqli fəaliyyətində nəzərə çarpan ciddi dəyişikliklər baş verir. Bu zaman uşaqda yetkinliyin üç səviyyəsi özünü göstərir: cinsi, psixoloji və sosial yetkinlik. Yeniyetmənin şəxsiyyət mənasında formalaşması üçün yetkinliyin həm cinsi, həm psixoloji və sosial səviyyəsi vəhdətdə, bir birilə əlaqəli şəkildə birlikdə qurulub inkişaf etməlidir [4. s. 16].

Fiziki inkişafda baş verən dəyişikliklərdən bəhs edək: ilkin olaraq orqanizmdə yeniyetməyə lazım olan möhkəmlik yaranır, əsəb sistemi, əzələ-damar sistemi sürətlə inkişaf edir, qız və oğlanların cinsiyyət üzvlərində dəyişikliklər baş verir və gənc yavaş-yavaş öz bədənini tanımağa və qəbul etməyə başlayır. Bunların hamısı yeniyetmənin psixologiyasına təsir edir. Keçid dövrü olan bu mərhələdə gəncdə fizioloji, bioloji və psixoloji sahələrdə olduqca sürətli dəyişikliklər yaranır. Bu sürətli dəyişikliklərlə əlaqəli olaraq yeniyetmə ruhi və emosional dünyasında, psixologiyasında dəyişikliklərə məruz qalır və buna öyrəşməyə çalışan yeniyetmə bir çox çətinliklərlə üzləşir. Yeniyetməlik dövrü boyun sürətlə inkişafı, orqanizmdə gedən maddələr mübadiləsinin yüksəlməsi, daxili sekresiya vəziləri fəaliyyətinin kəskin surətdə güclənməsi və cinsi yetişkənliyin baş verməsi ilə xarakterizə olunur. Uşaqlıqdan yeniyetməlik dövrünə keçən andan orqanizmində əsaslı dəyişikliklər baş verir: hipofiz və qalxanabənzər vəzilərin fəaliyyəti

sürətlənir bunun nəticəsində orqanizmdə maddələr mübadiləsi yüksəlir, bədənin aşağı və yuxarı ətrafları sürətlə inkişaf, hərəkətləri yöndəmsiz və kobud olur. Yeniyetməlik dövründə nəzərə çarpan ən mühüm cəhətlərdən biri fiziki inkişafla əlaqədar cinsi yetişkənliyin baş verməsidir [2. s 7-8].

Yeniyetməlik dövrü sosial - psixoloji cəhətdən də insanın həyatında önəmli bir mərhələdir. Bu dövr insanın cəmiyyətə uyğunlaşması, sosial mövqeyinin formalaşması və şəxsiyyətinin inkişafı üçün ən mühüm dövrdür. Yeniyetməlik dövründə insanın maraqlarında, davranışlarında və mənliyində ciddi dəyişikliklər baş verir. Bu dəyişikliklər isə sosial-psixoloji problemlərə səbəb ola bilir.

Sosial – psixoloji problemlərə ilkin olaraq ailə daxili münasibətləri nəzərdən keçirə bilərik. Bu mərhələ həm ailə həm də yeniyetmə üçün çətin keçir. Buna səbəb yeniyetmənin bu dövrdə müstəqilliyə can atması, valideynlərində əksinə daha da avtoritar tərbiyə üslubuna keçmələrini qeyd etmək olar. Valideynlərin bu mərhələdə uşaqlarını qorumaq ehyiyacları artır, çünki onlar yeniyetməliyin “keçid”, “böhran” mərhələsi olduğunun fərqindədirlər və uşaqlarının yanlış şeylərə meyl etməsindən çəkinirlər, bu səbəbdən də onları daha da sıxır, qaydalar qoyur və ciddi nəzarət etməyə çalışırlar. Yeniyetmə isə əksinə özünü isbat etmək, müstəqilliyə can atmaq meylindədir və valideynlərinin bu münasibəti onlarda aqressiya yaradır nəticədə bütün bunlar ailə daxili konfiliktlərin yaranmasına səbəb olur. Həmçinin, ailənin liberal üslubda olmasıda yanlış tərbiyə üsuludur bu zamanda yeniyetmə müstəqilliyindən istifadə edərək yanlış vərdişlərə yiyələnə bilər bu səbəbdən psixoloqlar və pedaqoqlar ən optimal üslub olaraq demokratik üslubu göstərirlər. Demokratik üslub həm yeniyetmənin həm də ailənin ortaq qərarları nəticəsəndə fikirlərin irəli sürülməsidir. Bu zaman yeniyetmənin də fikri alındığı üçün mövzularda özdəyərlilik ehtiyacıda ödənmiş olur və ailə daxili münasibətlərda heç bir problem baş vermir. Ailədə avtoritar və ya liberal tipli münasibətlər hökm sürdükdə, pis nəticələr meydana çıxır. Avtoritar stil yeniyetmələrdə valideyinlərə qarşı soyuqluq və ayrılma yaradır, özünün mənasızlığı, lazımsızlığı və ailədə arzuolunmasızlıq hissi baş qaldırır. Əsassız valideyn tələbləri yeniyetmələrdə bir çox halarda protest və aqresiya, bəzən isə apatiya və passivlik yaradır. Belə münasibət yeniyetmələrdə valideyinlərə inamsız hal yaradır. Onlara elə gəlir ki, artıq valideyinlərinə gərəksizdir, onlara lazım deyillər. Övladı ilə maraqlanmayan, passiv valideyn identifikasiya predmeti ola bilməz. Yeniyetmənin ətrafı həmyaşıdlar, məktəb həyatı, kütələvi kommunikasiya vasitələri ailə boşluğunu doldura bilmir, yeniyetmə dəyişilən və mürəkkəb dünyada oriyentasiyanı itirir. Bütün bunlar yeniyetmə “Mən”inin formalaşmasına neqativ təsirini göstərir, şəxsiyyəin strukturunda zəif, güvənsiz “Mən” formalaşır [3 s. 16-17].

Yeniyetmələrdə əxlaqi inkişafda bu dövrdə nəzərə çarpacaq dərəcədə dəyişir. Psixoloqlar belə bir qənaətə gəlmişlər ki, yeniyetməlik yaşı dövründə özünəməxsus “əxlaq məcəlləsi” əmələ gəlir (Ə.Ə.Əlizadə). Bu “məcəllə” onların yoldaşlıq münasibətlərini tənzim etdiyi üçün onu “yoldaşlıq məcəlləsi” adlandırırlar. Bu “məcəlləyə” görə yoldaş yoldaşının hörmətini saxlamalı, qayğısına qalmalı, ona lazım olduğu anda kömək etməli dostunu müdafiə etməlidir. Professor Ə.Əlizadənin qeyd etdiyi kimi, hörmət, qayğı, müdafiə anlamlarının yeniyetmələr üçün öz yozumu, öz mənası, öz təsiri var. Bu yozuma görə dərs vaxtı, imtahan zamanı yoldaş yoldaşa yeri gələrsə köçürməyə şərait yaratmalı, nəyin bahasına olur-olsun onun tərəfini saxlamalıdır. “yoldaşlıq məcəlləsində” məhz bu cür sərt “sanksiyalar” əsas yer tutur [5 s. 474].

Digər bir sosial – psixoloji problem isə mənlik şüurunun inkişafı zaman ortaya çıxa bilər. Bu dövrdə yeniyetmələrdə özlərini, digərləri ilə müqayisə etmək fikirləri formalaşır, öz mənlərini dərk etməyə başlayırlar. Mənlik şüurunun formalaşması onların düşüncələrinə, davranışlarına təsir göstərməyə başlayır. Bu zaman ətraf aləmdən, cəmiyyətdən təcrid olunarlarsa, öz mənlərini düzgün dəyərləndirməməyi öyrənərlərsə yeniyetmələrdə sosial – psixoloji problemlər ortaya çıxmağa başlayacaq və bu şəxsiyyətlərinin inkişafına mənfi təsir göstərəcəkdir. Bu səbəbdən yeniyetmənin “ideal mən”, “real mən” anlayışlarının düzgün formalaşması bu dövrün problemsiz keçməsi üçün əsas nüanslardan biridir. Şəxsiyyətin

inkişafına təsir edən bir digər amil isə özünüqiymətləndirmədir. Yeniyetmələr bu dövrdə özlərini düzgün qiymətləndirməyə bilirlər. Onlarda baş verən hormonal, fizioloji dəyişikliklər də, həmçinin özünüqiymətləndirmələrinə təsir göstərə bilir. Valideynlərinin, müəllimlərinin və ətrafında olan digər şəxslərin də onlara olan davranışı özünüqiymətləndirməsinə müsbət və ya mənfi şəkildə təsir göstərə bilir. Məsələn: sinifdə müəllimləri tərəfindən davamlı təzyiqə məruz qalar, digər uşaqlarla arasında ayrı – seçkilik yaradılarsa və ya şəxsiyyətinə təsir göstərəcək mənfi sözlərdən istifadə edilərsə, yeniyetmə özünün dəyərsiz olduğunu düşünəcək və özünü yanlış qiymətləndirəcəkdir. Yeniyetməlik dövründə hissi meylin formalaşması: Yeniyetməlik dövründə yetkinliyə meylin yaranması və bu hissin formalaşması müxtəlif amillərin təsiri altında baş verir. Yetkinlik hissinin yaranması birinci növbədə yeniyetmənin fiziki inkişafında dəyişikliklərlə özünü göstərir. Yeniyetmənin xarici görkəmi özlərindən yaşca böyük şəxslərin xarici görkəminə oxşamağa başlayır. Boy və gücləri artır. Bu dəyişikliyi görən yeniyetmədə yetkinlik meyli artıq yaranmağa başlamış olur. Yeniyetmələrdə yetkinlik hissinin yaranmasında onun daxil olduğu sosial qrupun da müəyyən rolu vardır. Bu qrupda çox vaxt yaşca böyük insanların olması və onların yeniyetməni qəbul etməməsi yetkinlik hissini bir daha gücləndirir. Yetkinlik hissinin inkişafında yeniyetmənin özü üçün davranış etalonu kimi seçdiyi nümunələr vardır və bu davranışlar yeniyetmə üçün mühüm əhəmiyyət daşıyır. Oğlanların formalaşan kişi idealında cəmiyyət arasında deyilən kimi qeyd etsək, “kişiyə” xas olan xüsusiyyətlər yer tutmağa başlayır. Bu xüsusiyyətlərə güc, qüvvət, iradə dostluğa və yoldaşlığa sədaqət aid ola bilər. Yeniyetmə oğlan başqa insanları və özünü qiymətləndirərkən məhz həmin xüsusiyyətləri əsas götürürlər. Yeniyetməlik dövründə qızlarda müəyyən qədər dəyişir. Onların davranışlarında qadınlığa xas olan xüsusiyyətlər mü-hüm rol oynamağa başlayır. İdealında olan xanım obrazına girməyə çalışırlar. Ya analarını və ya hər hansı bir tanınmış simanı özlərinə ideal seçərək onların davranışlarını sərgiləyirlər. Bu dövrdə qızlar daha çox diqqət və qayğı tələb edirlər. Bu diqqəti ilk öncə ailələrində atalarından gözləyirlər. Atasından görə bilmədiyi diqqəti cəmiyyətdə axtarmağa başlayarlar [2. s 10].

L.M.Semenyuk yeniyetmələrdə baş verən aqressiv davranışların səbəbini araştırmışdır və bunu 4 qrupda birləşdirmişdir.

I qrup. Bu yeniyetmələrdə anomallıq, əxlaqsızlıq, ibtidai tələbatlara üstünlük vermə, vaxtı ürəyi istədiyi kimi keçirmək, münasibət və dəyərlərin dəyişdirilməsi sabit xüsusiyyətləri əks olunur. Eqoistlik, yolagetməzlik, başqalarının yaşantılarına laqeydlik, nüfuzun olmaması kimi tipik xüsusiyyətlər bu yeniyetmələr üçün xarakterikdir. Onlar hədsiz eqoist, utanmaz, qəzəbli, tez özündən çıxan, kobud və dalaşqan olurlar. Onların davranışında fiziki aqressivlik üstünlük təşkil edir [8. s 38].

II qrup. Bu yeniyetmələr üçün dəyişmiş dəyər və tələbatlar xarakterikdir. Onlar daha çox fərdiyyətçidilər, az və ya çox dərəcədə geniş maraq dairəsinə malikdirlər, özlərindən kiçikləri və zəifləri sıxışdırmaq hesabına həmişə yuxarılarda yer tutmağa can atırlar. İmpulsivlik, əhvalın tez dəyişməsi, yalançılıq, tez hirslənmə onlar üçün xarakterikdir. Yoldaşlıq haqqında təhrif olunmuş təsəvvürlər olur. Kiminsə ağrıması onlara həzz verir. Situasiyadan asılı olaraq onlara qarşı çıxanlara və özlərindən zəiflərə güc tətbiq etməyə çalışırlar [8. s 38].

III qrup. Belə yeniyetmələri dəyişmiş dəyərlər, pozitiv tələbatlar, münasibət və baxışlar arasında konfliktlər xarakterizə edir. Onlar müəyyən situasiyalarda rola girirlər, yalançılığa əl atırlar və birtərəfli maraqları ilə fərqlənirlər. Bu tip yeniyetmələr süstlük edirlər və nailiyyətə, müvəfəqiyyətə can atmırlar. Onların davranışlarında dolayı və verbal aqressiya üstünlük təşkil edir [8. s 38].

IV qrup. Belə yeniyetmələr zəif dəyişən tələbatları ilə fərqlənirlər, onlarda müəyyən maraqlar olmur və son dərəcə ünsiyyət dairələri məhduddur. Onlar iradəsizdirlər, hər şeydən şübhələnəndilər və güclü insanların qabağında yaltaqlanırlar. Bu yeniyetmələr üçün qorxaqlıq və qisasçılıq xarakterikdir. Onların davranışlarında neqativizim və verbal aqressiya üstünlük təşkil edir [8. s 38].

Rus psixoloqlarının yeniyetmələrin öyrənilməsinə dair tədqiqatları məlumdur. L.S.Vıqotski yeniyetməlik yaşının başlıca xüsusiyyəti kimi yaşlılıq hissini qeyd edir [9. s 332]. Lakin bir məsələ açıq qalır: yaşlıların dəyər sisteminə istiqamətlənmə və özünün yaşlılarla müqayisəsi yeniyetmənin özünü yenidən kifayət qədər kiçik və müstəqil olmadığını anlamağa məcbur edir. Yeniyetmə olmayanlardan fərqli olaraq, yeniyetmə bu vəziyyəti normal saymır və onu dəyişməyə cəhd edir. Yaşlılıq hissinin ziddiyyətli olması burada meydana çıxır:yeniyetmə yaşlı olmaq iddiasındadır və eyni zamanda anlayır ki, onun iddiası həqiqətdən uzaqdır və bəraət verilməyəcəkdir [3. s 14-15].

Başqa bir sosial-psixoloji problem isə qruplaşma və mənsubiyyət hissidir. Yeniyetmələrin özlərini aid hiss etdikləri qruplar: yaşıdları, məktəb, ailə və ya maraqları ilə bağlı olan insanlarla yaradılan qruplar ola bilər. Qruplaşma və mənsubiyyət hissi sosial mövqeyi, öz-dəyər hissi və şəxsiyyətinin formalaşması üçün əhəmiyyətlidir. Lakin, qruplaşma hissi də zaman - zaman yeniyetmələrin digər insanlardan ayrışması hissini də yarada bilər. Buna səbəb bəzən yeniyetmələr özlərinə uyğun qrupu tapmaqda çətinlik çəkirlər, insanların onları anlamadığını düşünə bilirlər belə olduqda da müəyyən bir qrupa daxil ola bilmir və tək qalmağı seçirlər bu da bir digər sosial - psixoloji problemin yaranmasına səbəb ola bilir.

Yeniyetməlik dövründə baş verən bu kimi problemlərin araştırılmasına XX əsrin iyirminci illərində təxminən başlanılmışdır. Bu dövrdə Stenli Xoll, Ziqmund Freyd, L. S. Vıqotski və s. kimi tədqiqatçıların adı xüsusilə seçilir.

Stenli Xoll belə hesab edirdi ki, yeniyetmənin şəxsiyyətində mövcud olan nəyisə dəyişmək, yenidən tərbiyə etmək məqsədyönlü deyil, tamamilə faydasızdır. Stenli Xollun düşüncəsinə görə təbiətin insana ötürdüyü müəyyən əlamətləri dəyişmək olmaz. Ziqmund Freydə görə yeniyetməlik yaşı, ilk növbədə bioloji amillərlə, o cümlədən cinsi yetişkənliklə şərtlənir [4. s 21]. Yeniyetmə şəxsiyyətinin ziddiyyətləri barədə A.Freyd qeyd edirdi ki, “Yeniyetmələr son dərəcə eqoistdirlər, özlərini kainatın mərkəzi və marağa layiq olan yeganə varlıq sayırlar, eyni zamanda həyatlarının sonrakı heç bir mərhələsində onlar belə sadiqliyi və özünü qurban verməyi bacarmırlar. Onlar ehtiraslı məhəbbət münasibətlərinə ona görə girirlər ki, onu qəfil başladıqları kimi qəfil də kəssinlər. Onlar bir tərəfdən entuziazmla cəmiyyət həyatına qoşulur, digər tərəfdən tənhalıq hissinə bürünürlər. Onlar liderə kor-koranə itaətlə hər hansı bir hakimiyyətə üsyan arasında tərəddüd edirlər. Onlar eqoist və materialistdirlər. Eyni zamanda ülviliyə və idealizmə tapınırlar. Onlar asketdirlər, eyni zamanda ən pirimitiv xarakterli düşkünlüyə qapıla bilərlər. Hədsiz kövrək olmalarına baxmayaraq bəzən digər insanlara münasibətdə kobudluq göstərirlər....” [10 s. 243].

L.S.Vqotski böhran probleminə başqa cür yanaşma göstərib ki, yaş böhranlarını öyrənərkən iki cəhətə daha çox fikir vermək lazımdır. Əvvəl şüurda baş verən əsas dəyişiklikləri fərqləndirmək, ikincisi isə, hər yaşda uşaqla mühit arasında təkrarolunmaz münasibətlər sistemini təmsil edən inkişafın sosial şəraitini müəyyənləşdirmək lazımdır. Xülasə etdikdə yeniyetmə yaş dövrünün böhranları ictimai cəmiyyət həyatının ona yəni inkişaf edən yeniyetmə şəxsiyyətinin yaşlılar dünyasında müəyyən titul tutmaq istədiyi zaman əldə olunan əlamətlərlə, sərbəstliyə doğru artan tələbatlarla bu müstəqilliyi həyata keçirmək imkanları arasında baş tutur [1 s. 341-345].

**Nəticə**

Beləliklə məlum oldu ki, yeniyetməlik dövrünün “keçid” dövrü olmasının səbəbi bu dövrdə baş verən fizioloji və psixoloji dəyişikliklərdir. Həmçinin məqalədə bu dəyişikliklərin yeniyetmədə buraxdığı sosial – psixoloji problemlərdən bəhs edildi. Bu problemlər üzrə bir çox tədqiqatlar aparılmışdır və müxtəlif səbəblər irəli sürülmüşdür. Bu səbəblərədə ailədaxili münasibətləri, yaşlılıq hissinin formalaşmasını, özünüqiymətləndirmə, mən konsepsiyası məsələlərinin inkişafının düzgün formada getməməsi aid edildi.

## ƏDƏBİYYAT SİYAHISI

1. Qədirov Ə. Yaş psixologiyası. Bakı-2008, 341-345 s

2. Məmmədzadə A. O. Yeniyetmələrin sosial davranışlarının tənzimi və onlara sosial

nəzarətin təşkilinin psixoloji əsasları, // 060209 Ümumi psixologiya. Psixol. üzrə fəl. dok. …diss. Bakı. 2018

3. Muradova İ.M. Yeniyetmələrin hüquqazidd davranışlarına təsir göstərən amillərin psixoloji tədqiqi. // 060209 Klinik psixologiya. Psixol. üzrə fəl. dok. …diss. Bakı. 2018
4. Nəsirli G.E. Natamam ailələrdə böyüyən yeniyetmələrdə şəxsiyyət pozuntuları problemi və onun reablitasiya məsələləri, // 060209 ümumi psixologiya. Fəl. dok. …diss Bakı. 2017
5. Seyidov. S İ. və Həmzəyev. M.Ə. Psixologiya. Bakı. 2007.
6. Zamanzadə G.N. Orta məktəb şagirdlərində internet aslılığı və psixoloji simptomlar arasındakı əlaqələrin təhlili, // 060209 klinik psixologiya. Fəl. dok. …diss. Bakı. 2018
7. Öztürk. M. Ergen psikolojisi. Meridyen destek derneği. Üsküdar/İstanbul
8. Семенюк Л.М. «Психологические особенности агрессивного поведения подростков и условия его коррекции» Москва, 1996, с 38
9. Фромм Э. Анатомия человеческой деструктивности. Пер. с англ. Э. М. Телятникова; Вступ. ст. П. С. Гуревич. — М.: АСТ, Хранитель, Мидгард, 2007. — 332 с.
10. Фрейд 3. «Я» и «Оно». Труды разных лет. Кн. 1. Тбилиси. Изд-во «Мерани», 1991г. 243.

**Арзу Етйбар кызы АХУНДЗАДА**
*Магистрант кафедры Политологии, Психологии и Социальной работы*
*Западно-Каспийского университета*
E-mail: arzuakhundzadeh@gmail.com

## СОЦИАЛЬНО – ПСИХОЛОГИЯЧЕСКИЕ ПРОБЛЕМЫ ПОДРОСТКОВОЙ ЛИЧНОСТИ

### Резюме

Подростковый возраст – один из самых ответственных и ответственных этапов в жизни каждого человека. В этот период подростки сталкиваются с социальными, психологическими и биологическими изменениями, оказывающими серьезное влияние на формирование их поведения и мышления. В данной статье речь пойдет о социально-психологических проблемах, с которыми могут столкнуться люди в подростковом возрасте. Среди этих проблем речь пойдет о влиянии семейных отношений на подростка как социальном влиянии, а также о том, какие методы воспитания используют родители в этот период. Также в качестве психологического воздействия будут рассмотрены вопросы концепции «Я», самооценки и влияние чувства старости на личность подростка.

**Ключевые слова:** Подростковый возраст, физиологические изменения, чувство старости, личность, социально-психологические особенности.

**Arzu Etibar gızı AKHUNDZADA**
*Master's student of the Department of Political Science,*
*Psychology and Social Work, Western Caspian University*
E-mail: *arzuakhundzadeh@gmail.com*

## SOCİAL - PSYCHOLOGİCAL PROBLEMS OF ADOLESCENT PERSONALİTY

### SUMMARY

Adolescence is one of the most critical and important stages in every person's life. During this period, adolescents face social, psychological and biological changes, which have a serious impact on the formation of their behavior and thoughts. This article will focus on the socio-psychological problems that people in adolescence may face. Among these problems, it will be discussed about the influence of family relationships on the adolescent as a social influence, and what kind of parenting methods parents use during this period. Also, as a psychological influence, the concept of "I", self-esteem issues and the effect of the sense of old age on the adolescent personality will be addressed.

**Keywords:** Adolescence, physiological changes, sense of old age, personality, socio-psychological characteristics.

**Daxil olub:** 02.01.2023